18 aprel Tarixi Abidələrin Mühafizəsi Günüdür





# Maddi mədəniyyət nümunələri minilliklərin yadigarlarıdır

## *Azərbaycanın işğal altında qalan yeraltı və yerüstü sərvətləri də erməni vandalizminin qurbanlarına çevrilib*





Abidələr, qalalar zamanın, dövrün daşlaşmış səhifələri kimi "danışan tarix"ə çevrilir, keçən keçmişdən - minilliklərdən soraq verir. Bu mənada hər bir xalqın varlığını sübut edən yadigarlar içərisində abidələrin özünəməxsus yeri və rolu var. Zaman-zaman dəyişilən ictimai-iqtisadi formasiyalar, mədəniyyətlərin qovuşması, yaxud ayrılması bu tarixin şahidlərinin sinəsinə həkk olunub. Xalqımızın mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz bir parçasıdır. Elə buna görə də çoxəsrlik tarixi keçmişimizdən yadigar qalan maddi mədəniyyət abidələrinin mühafizəsi həm də beynəlxalq əhəmiyyət kəsb edir.

Tədqiqatlar təsdiqləyib ki, Azərbaycan bəşər sivilizasiyasının ilk meydana gəlmiş ərazisində yerləşir. Təbii coğrafi mövqe və həyat şəraitinin təmini üçün zəruri mühitin olmasındandır ki, bu yerlər ilk insan məskənləri kimi tarixə yazılıb. Ulu babalarımızın çox dəyərli yadigarları hesab edilən maddi mədəniyyət nümunələri respublikamızın əksər ərazilərində yetərincə var. Ona görə də ölkəmizə səfər edən səyyahlar Azərbaycanın tarixini özündə əks etdirən qədim dini və mədəni abidələrə heyranlıqlarını gizlədə bilməmiş və bu barədə dəfələrlə öz xatirələrində qeyd etmişlər.

Maddi mədəniyyət abidələri ilə yanaşı, dini xarakterli məbədlər də bu yerlərin tarixinin zənginliyini özündə əks etdirir. Coğrafi nöqteyi-nəzərdən harada tikilməsindən asılı olmayaraq, ilk növbədə, onların təbii mühafizəsi nəzərə alınıb. Qobustan qayalıqları ilə Azıx mağarasında ilk insanın əl işlərinin dövrümüzədək gəlib çıxmasında da məhz təbii coğrafi amil əsas rol oynayıb. Qobustanda aşkar edilmiş mağaralar və digər sığınacaqlar, memarlıq abidələri də sübut edir ki, bu yerlər sivilizasiyaların qovuşaraq yaratdığı mədəniyyətin beşiyidir.

Manna və Atropatena dövlətlərinin mədəniyyət abidələri, müdafiə tikililəri - qalalar, yolüstü karvansaralar, o dövrün şəhərlərinin əzəmətli qala divarları, Urmiya gölü ətrafındakı sərdabələrin tədqiqi göstərir ki, hələ altıncı yüzillikdə bu yerlərdə yaşayış mədəniyyəti o həddə çatıb ki, hətta eyvanlı evlər də tikilib. Yaxud həmin dövrün dini abidələrindən olan od məbədləri - bugünümüzədək gəlib çatan belə sərvətlər (Atəşgah) Azərbaycanın milli memarlığının inkişafında mühüm rol oynayıb. Onu da qeyd etməliyik ki, atəşpərəstliyin yayılması ilə bağlı yaradılan ibadətgahlar islamdan əvvəlki dövrün məbədləri sayılır. Qafqaz Albaniyasının yadigarları da bir daha təsdiqləyir ki, şəhərsalma mədəniyyətinin təşəkkül tapmasının tarixi çox qədimlərə gedib çıxır. Qəbələnin möhkəm qala divarları, saxsı borularda şəhərə su çəkilməsi, dəmirqapı Dərbənd keçidindəki müdafiə sistemi, Çıraqqala, Ləkit və Mingəçevirdəki məbədlər kompleksi, yaxud Sasanilər dövrü tarixini özündə qoruyub saxlayan müdafiə xarakterli abidələr də bunları söyləməyə əsas verir.

Qafqazda islam dininin yayılması ilə bu yerlərdə memarlığın inkişafında da müəyyən dəyişikliklər zərurətə çevrilib. Yeni tipli memarlıq tikililəri - məscidlər, mədrəsələr, türbə və digər məbədlər inşa edilib. Ərdəbil, Marağa, Urmiya, Şamaxı, eləcə də Bərdə, Şabran və digər yaşayış yerləri o dövr üçün Azərbaycanın ən inkişaf etmiş mədəniyyət mərkəzlərindən sayılıb. O da xüsusi olaraq qeyd edilməlidir ki, islamdan əvvəlki dövrlərdə inşa edilən alban tikililəri milli memarlığın inkişafında mühüm əhəmiyyət daşıyıb. Həmin dövrün abidələrindən söz açarkən Zaqataladakı Paşan və Muxax, Şəkidəki Böyük Gəldək, Gavurqala, Qəbələnin Nic kəndindəki, Dağlıq Qarabağın Xocavənd rayonunun Qarakənd, bir sözlə, respublikamızın bütün bölgələrindəki tarixi, dini, maddi mədəniyyət nümunələrini unutmaq olmaz.

Yeri gəlmişkən, hər bir dövrün özünəməxsus memarlıq nümunələri olub və onlar tarixi əhəmiyyət daşıyıb. Son dövrlər həmin yadigarlara münasibət birmənalı şəkildə dəyişib və onların əhəmiyyəti birə-on qat artıb. Turizmin inkişafında mühüm rol oynayan belə abidə və məbədlər əcnəbi turistləri daha çox cəlb edir.

Təəssüf ki, onlar məhəlli münaqişələrin qurbanlarına çevrilməkdən də sığortalanmayıblar. Hər dövrün siyasi proseslərinin və ictimai münasibətlərin özü ilə gətirdiyi "səmum yeli" onların bir çoxunun daşını daş üstə qoymayıb. Ötən əsrin əvvəllərində və sonlarında ermənilərin məkrli, çirkin siyasəti nəticəsində yer üzündən silinən abidə və məbədlərimiz də belələrindəndir. Erməni işğalçılarının talan etdikləri abidələrdə Azərbaycan xalqının tarixinin və mədəniyyətinin zənginliyini, eləcə də qədimliyini özündə əks etdirdiyi üçün qəddarcasına, vəhşicəsinə yer üzündən silinir, yaxud "erməniləşdirilir". Dağıdılan, məhv edilən maddi mədəniyyət nümunələrinin arasında təkcə Şuşa, Laçın və Qubadlının rəsm qalereyaları deyil, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Kəlbəcərin ərazilərindəki, hətta muzeylərində qorunub saxlanan belə sərvətlər də talan edilərək Ermənistana daşınıb.

Bəşər mədəniyyətinin tərkib hissəsi olan maddi-mənəvi irsin qorunması beynəlxalq əhəmiyyət kəsb etdiyindən, onların mühafizəsi daim diqqət mərkəzindədir. Azərbaycan dövlətinin yürütdüyü humanitar siyasət sayəsində respublika ərazisindəki mövcud tarixi, dini və mədəniyyət abidələrinin aşkar edilməsi və mühafizəsi istiqamətində çox böyük və məqsədyönlü layihələr həyata keçirilir. Bu işdə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Məhz fondun reallaşdırdığı bir sıra regional, yerli və beynəlxalq layihələr əsasında xalqımızın maddi-mənəvi sərvətləri qorunub saxlanır və onların gələcək nəsillərə çatdırılması artıq xüsusi fəaliyyət proqramına çevrilib.

Təəssüf ki, abidələrin beynəlxalq mühafizəsindən danışıldığı bir vaxtda erməni vandalizmi Azərbaycanın maddi mədəniyyət nümunələrini yer üzündən silməklə məşğuldur. Bu barədə dəfələrlə deyilsə də, təcavüzkar ermənilər beynəlxalq qanunlara məhəl qoymurlar.

Hamıya bəllidir ki, Şuşa tarixən abidələr şəhəri kimi tanınıb. Lakin 1992-ci il may ayının 8-dən sonra bu qədim, ulu musiqi beşiyində xalqımıza məxsus maddi mədəniyyət nümunələri dağıdılıb. Orada "güllələnmiş heykəllərin fəryadı" isə beynəlxalq birlikdə eşidilmədi. Erməni vandalizminin Azərbaycan ərazilərinə təkcə ötən əsrin 90-cı illərinin əvvəllərində təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli muzey, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi - tarixi və mədəniyyət nümunələrini yerlə-yeksan etməsi faktı artıq bir sıra beynəlxalq təşkilatların rəsmi sənədlərində də əksini tapıb. Əlbəttə, bura ayrı-ayrı rayonlarda məhv edilmiş abidə və məbədləri də əlavə etməli olsaq, deməliyik ki, ermənilərin məkrli siyasətinin nəticəsidir ki, keçmiş SSRİ-də yeganə sayılan Ağdamın Çörək zavodundan bu gün əsər-əlamət belə yoxdur. Dünya şöhrətli, 13 mindən artıq nadir eksponatlı Kəlbəcər, həmçinin Xocalı, Şuşa, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının tarix-diyarşünaslıq muzeyləri darmadağın edilib.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın tarixi və mədəniyyəti, eyni zamanda, dini abidələrinin vəhşicəsinə dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası, eləcə də "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası ilə zidd olsa da, nədənsə, beynəlxalq birlik belə vəhşiliyin və terrorçuluğun qarşısının alınmasında qəti mövqe göstərmir, bu vandalizmə ikili standartlarla yanaşır.

1983-cü ildə UNESCO-nun Beynəlxalq Abidələrin Mühafizəsi Assambleyasının təsis edilməsində də məqsəd diqqəti maddi mədəniyyət nümunələrinin və tarixi ərazilərin qorunmasına yönəltmək olub. Sivilizasiyalı bəşəriyyətin tarixi keçmişinin öyrənilməsində abidələr xüsusi əhəmiyyət daşıyırlar. Lakin minilliklərin yadigarları olan bu sərvətlərin, təəssüf ki, heç də hamısı bu günümüzə qədər gəlib çıxmayıb. Onların sıradan çıxmasının isə təbii və subyektiv səbəbləri olub. Təbii aşınmalara məruz qalan abidələrin insan əli və əməlinin də qurbanlarına çevrilməsi faktları ötən əsrin əvvəllərində və sonlarında özünü daha qabarıq formada göstərib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***